Cəlil Məmmədquluzadə – 155

# "Pak və təmiz vicdanın səsi"

**Uzun müddət belə hesab edilib ki, görkəmli demokrat ədib Cəlil Məmmədquluzadə 1866-cı ildə anadan olub. Amma sonra müəyyən araşdırmalar sayəsində onun 1869-cu il doğumlu olduğu təsdiqlənib. Bu hesabla indi Mirzə Cəlilin 155 illik yubilyey günü olduğunu demək daha dopğru olar.**

Azərbaycan Prezidenti İlham Əliyev 17 yanvar 2019-cu ildə Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Həmin il Nazirlər Kabinetinin qərarı ilə Cəlil Məmmədquluzadə Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib.

Mirzə Cəlil "Danabaş kəndinin əhvalatları", "Danabaş kəndinin məktəbi", "Kişmiş oyunu", "Poçt qutusu", Usta Zeynal", "Dəllək", "İranda hürriyyət", "Fatma xala", "Qurbanəli bəy", "Quzu", "Nigarançılıq", "Pirverdinin xoruzu", "Kamança", "!Lal", "Dəli yığıncağı", möhtəşəm "Ölülər" əsərləri, xüsusilə də "Molla Nəsrəddin" jurnalı ilə aləmə səs salıb. Bu jurnalın ictimai-bədii əks-sədası cəmiyyətdə bomba təsiri yaradıb. O dövrün ən görkəmli fikir sahibləri – Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Firudin bəy Köçərli və başqaları "Molla Nəsrəddin"in meydana çıxmasını tarixi hünər kimi qiymətləndiriblər.

Ulu öndər Heydər Əliyev böyük Mirzə Cəlil və onun "Molla Nəsrəddin"inə yüksək dəyər verib: "Biz Cəlil Məmmədquluzadəyə sadəcə bir ədəbiyyatçı kimi, yazıcı kimi, publisist kimi yox, eyni zamanda, böyük ictimai xadim və böyük siyasətçi kimi yanaşmalıyıq. Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişafında, milli ruhun yüksəlməsində böyük rol oynamışdır. Bu, təkcə ədəbiyyatda, mədəniyyətdə deyil, siyasətdə də, ictimai həyatımızda da böyük xidmətdir". Dəyərli alimlərimizdən Abbas Zamanov, Qulam Məmmədli, Mir Cəlal Paşayev, Turan Həsənzadə bir çox elmi məqalələrini Mirzə Cəlilə həsr etmişlər. Mirzə Cəlili oxuya-oxuya, özü də bu məktəbin davamçısı olmuş Mir Cəlal Paşayev ədibin yaradıcılığına 20 böyük elmi məqalə həsr edib. Yazıçı-alim məqalələrinin birində deyir: "Mirzə Cəlil ədəbiyyatımıza "xırda adamları", onların dərdini, ürək döyüntülərini gətirdi. Xalqın dərdini qələmə almaq – Vətənə, xalqa sonsuz məhəbbətdən doğur".

Abbas Zamanov böyük ədib haqqında deyib: "Mirzə Cəlil əsərlərini ürəyinin qanı ilə yazırdı". Unudulmaz Xalq şairi



miz Rəsul Rza şeirlərindən birində onu güzgüyə bənzədib:

**Qoca Şərqin güzgüsü idi Mirzə Cəlil,**
**Kim baxmadı o həqiqət güzgüsünə?!**
**Həqiqəti açıq demək asan deyil,**
**O, bu yolda hər əzaba gərdi sinə.**

Cəlil Məmmədquluzadənin irsini tədqiq edərək doktorluq dissertasiyası yazmış, ilk dəfə olaraq onun soy şəcərəsini tərtib etmiş, nəslinin Fransa və İrandakı davamçılarını tapmış, 5 il əvvəl Polşadakı varislərinin Bakıya səfərini təşkil etmiş AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli 3 adla tanınan ədibi özünəməxsus şəkildə xarakterizə edib: "Cəlil Məmmədquluzadə – Molla Nəsrəddin – Mirzə Cəlil ayrı-ayrı tələffüz qaydalarına tabe olan sözlərdir. Lakin onların hamısı bir mətləbi dolğun şəkildə ifadə edir: Vətəndaş yazıçı".

Qeyd edək ki, 1920-ci ildə Azərbaycanın bolşevik istilasından sonra C.Məmmədquluzadə Qarabağın Kəhrizli kəndindən Güney Azərbaycana – Təbrizə köçüb. Böyük çətinliklərdən sonra yerli ziyalıların köməyi ilə "Molla Nəsrəddin"in 8 nömrəsini çıxara bilir. O, "Molla Nəsrəddin"in Təbriz nömrələrində də özünün tarixi mübarizəsini davam etdirir. Xalqı türkləşmək, islamlaşmaq və müasirləşmək idealları uğrunda mübarizəyə çağırır. Jurnalın Təbriz saylarındakı yazıların əksəriyyətini Cəlil Məmmədquluzadə özü yazır. Onun bu yazıları Təbrizin ədəbi və ictimai həyatında böyük əks-səda yaradır. "Tüstü" felyetonunda bu dövrdə İran Azərbaycanında hökm sürən ictimai geriliyi bu cür səciyyələndirirdi: "Hər yan tüstüdür, məclislərdə və evlərdə düxaniyyat və məşrubat tüstüsü, küçələrdə hamam tüstüsü, mənəviyyatda mövhumat tüstüsü, ruhda və qəlbdə kəsafət tüstüsü! Xülasə, millət tüstü içində boğulmaqdadır və boğula-boğula nicata müntəzirdir".

Mühacirətindən ilyarım sonra Azərbaycanda yada düşən ədib Bakıya dəvət olunub. Daha 9 il "Molla Nəsrəddin"i burada nəşr edib. Amma sovet rejiminə rəğbəti olmadığı üçün, sovet idarələrindəki qüsurları və ölkənin varidatını Rusiyanın talamasını tənqid etməsinə görə siyasi dairələrin təzyiqlərinə məruz qalır. 1930-cu ildən jurnalın zorla "Mübariz, Allahsızlar İttifaqının Mərkəzi və Bakı Şurasının orqanı"na çevrilməsi C.Məmmədquluzadəni daha da sarsıdır. Məhz bunun nəticəsi olaraq böyük ədib 1932-ci ilin 4 yanvarında beyninə qan sızması nəticəsində həyatını itirir.

...C.Məmmədquluzadənin ev-muzeyinin böyük elmi işçisi Yeganə Məmmədova yazır ki, Mirzə Cəlil Vətən sevgisində doğulmuş bir qəhrəmandır. Bu sevgi onu o qədər ucalara qaldırmışdı ki, o zirvədən hər şeyi olduğu kimi görmüş, eybəcərlikləri ustalıqla qələmə almış, ifşa edə bilmişdir. Milli şüurun oyanışında, milli ruhun formalaşmasında Cəlil Məmmədquluzadə və onun "Molla Nəsrəddin"i əvəzsiz məktəb rolu oynamışdır. Mirzə Cəlil qaranlıqda işıq axtara-axtara bütün ömrü uzunu yol gedir və işığı yalnız xalqın maariflənməsində görürdü. Təsadüfi deyil ki, bədii ədəbiyyatımızda Azərbaycanın xəritəsi ilk dəfə Mirzə Cəlilin əsərlərində əks olunmuşdur.

Böyük Mirzə Cəlil milli nəsrimizin şahanə əsəri olan "Danabaş kəndinin əhvalatları" povestinin epiqrafında yazmışdı ki, qəlbindən gələn səs ona çox şey öyrədir: "Haman səs pak və təmiz vicdanın səsidir" Bu gün biz Cəlil Məmmədquluzadə irsini ədəbiyyatımızın "pak və təmiz vicdan səsi" sayırıq.

Ölməz əsərləri ilə Azərbaycan xalqını özünüdərkə çağıran Mirzə Cəlil bu gün də bizim böyük müasirimiz olaraq qalır.

**Ə.ƏLİYEV**
**XQ**